https://doi.org/10.36719/2706-6185/41/26-30

**Şəlalə Mahmudova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
shalale.makhmudova@mail.ru

# Müasir Azərbaycan uşaq ədəbiyyatında hekayə janrı

**Xülasə**

Müasir uşaq yazarları oxucuların təbiətlə, ətraf aləmlə, əşya və predmetlərlə bağlı bilgilərini artırmaq məqsədilə hekayə janrının imkanlarından daha çox istifadə edirlər. Hekayə janrı, xüsusən kiçik məktəbyaşlı uşaqların oxusu üçün ən münasib janrdır. Bildiyimiz kimi, yüksək ideyalar aşılayan uşaq əsərləri yeni nəslin təlim-tərbiyəsində mühüm rol oynayır. Hekayə janrının yığcam süjet xəttinə malik olması onun aşağı siniflərdə tədrisinə əlverişli şərait yaradır. Bu janr kiçik həcmli olmaqla yanaşı, həm də tərbiyəvi əhəmiyyət daşıyır. Bu baxımdan, bu əsərlərin yazılmasına üstünlük verilmiş və bu gün də yazılmaqdadır.

Məqalədə 90-cı illərdən bu yana yazılan hekayələrin bir qisminə diqqət yetirilmişdir. Qeyd olunmuşdur ki, müasir mərhələdə Zahid Xəlil, Qəşəm İsabəyli, Rafiq Yusifoğlu kimi qocaman sənətkarlarla yanaşı orta nəslin nümayəndələrindən Gülzar İbrahimova, Reyhan Yusifqızı, Sevinc Nuruqızı müxtəlif yaş qruplarında olan uşaqlar üçün hekayələr yazır, uşaq ədəbiyyatının inkişafına xidmət göstərirlər.

Bu mərhələdə yazılmış hekayələrdə, əsasən, 2 mövzuya toxunulmuşdur. Bunlardan birincisi – ənənəvi olan dostluq, xeyirxahlıq, humanizm, mərhəmət, əməyə çağırış və s. əxlaqi motivlərdir. İkincisi isə – müstəqillik illərində Azərbaycanda baş verən tarixi hadisələr – Qərbi Azərbaycandan, Qarabağdan didərgin düşmüş soydaşlarımızın acı taleyi, 20 Yanvar və Xocalı faciəsi, şəhidlər mövzusu təşkil edir.

***Açar sözlər:*** *hekayə, süjet, obraz, mövzu, ideya, mənəvi dəyərlər*

**Shalala Mahmudova**
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Philology
shalale.makhmudova@mail.ru

# The Short Story Genre in Azerbaijani Modern Children's Literature

**Abstract**

Modern children's writers increasingly use the short story genre to enhance readers' knowledge about nature, the environment, objects, and items. The short story genre is particularly well-suited for young school-aged children. As we know, children's literature that conveys important ideas plays a significant role in the education and upbringing of the new generation. The compact plot structure of short stories makes them ideal for teaching in lower grades. Despite being brief, this genre also carries educational value. For this reason, such works have been favored in writing and continue to be produced today.

The article focuses on some of the short stories written since the 1990s. It is noted that, in the modern era, alongside veteran writers like Zahid Khalil, Gashem Isabeyli, and Rafiq Yusifoglu, representatives of the middle generation such as Gulzar Ibrahimova, Reyhan Yusifgizi, and Sevinj Nurugizi also write stories for children of various age groups, contributing to the development of children's literature.

In the stories written during this period, two main themes are primarily addressed. The first includes traditional moral motifs such as friendship, kindness, humanism, compassion, and the call to hard work. The second theme focuses on the historical events that occurred in Azerbaijan during

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

the years of independence, including the tragic fate of our compatriots displaced from Western Azerbaijan and Karabakh, as well as topics like the January 20 events, the Khojaly massacre, and the stories of martyrs.

***Keywords:*** *short story, plot, character, theme, idea, moral values*

## Giriş

Azərbaycan uşaq ədəbiyyatı yarandığı gündən bugünəcən durmadan inkişaf etmiş, bir çox mərhələlərdən, tarixi dönəmlərdən keçərək zənginləşmişdir. Tanınmış ədəbiyyatşünasların da qeyd etdiyi kimi, uşaqlar üçün əsər yazmaq böyüklər üçün yazmaqdan daha qəliz və əziyyətlidir. Çünki uşaq üçün yazan özü artıq uşaq deyil, o, uşaqların nə düşündüyünü, onların marağını daha çox nə cəlb etdiyini bilmək üçün onlar kimi düşünməyi bacarmalıdır. Bunun üçün yazıçı uşaqlar arasında çoxlu vaxt keçirməli, onlarla ünsiyyətə girməli, kənardan onları müşahidə etməlidir.

"Azərbaycan uşaq ədəbiyyatının son illər meydana gəlmiş ədəbi yaradıcılığını nəzərdən keçirdikdə belə bir nəticəyə gəlmək olur ki, uşaqlar üçün yazan qələm sahiblərimiz öz imkanları çərçivəsində balaca oxucuların təlim-tərbiyəsinə, mənəvi dəyərlərinin inkişafına və formalaşmasına təsir edən əsərlər yaratmağa çalışmışlar. Xüsusilə Azərbaycan Respublikasının əldə etdiyi azadlıqdan sonra uşaq ədəbiyyatında az da olsa, yeni səpgili əsərlərin yazılmasına meyil artmışdır" (Xəlil, Əsgərli, 2007, s. 433-434).

**Tədqiqat**

Müasir uşaq ədəbiyyatı nümayəndələri həm ədəbiyyatın şifahi qolundan, həm yazılı qolundan bəhrələnərək sələflərinin yolunu layiqincə davam etdirir, eyni zamanda dövrün tələblərinə cavab verən orijinal əsərlər ortaya qoyurlar. Azərbaycan uşaq ədəbiyyatı nəzm və nəsrlə yazılan gözəl əsərlər hesabına zənginləşir, inkaşaf edir. Lakin müasir mərhələdə uşaq üçün əsər yazmaq, onları təəccübləndirmək elə də asan deyil. "Yerin altını da, üstünü də bilən müasir uşaq həyatın elə bir problemi yoxdur ki, onunla maraqlanmasın. Uşaqların maraq selini səngitmək, onu lazımi məcraya yönəltmək üçün uşaq ədəbiyyatının xidməti əvəzsizdir. Hamıya məlumdur ki, insan dünya, kainat, təbiət, cəmiyyət və s. haqqında gərəkli informasiyaların əksəriyyətini körpə vaxtlarından hafizəsinə həkk edir. Elə buna görə də uşağın gələcək dünyagörüşünün formalaşmasında, onun layiqli vətəndaş kimi böyüməsində uşaq ədəbiyyatını əvəz edəcək ikinci bir vasitə yoxdur" (Yusifoğlu, 2006, s. 3). Bu səbəbdən uşaq ədəbiyyatı nümayəndələrinin üzərinə çox böyük bir məsuliyyət düşür. Hər bir uşaq yazarı bacardığı qədər bu məsuliyyətli işin öhdəsindən gəlməyə çalışır.

"Uşaq ədəbiyyatı dünyası öz mövzuları və süjetləri, fərqli qəhrəmanları, dili və üslubu olan bir ədəbiyyat kimi inkişaf edir. Müstəqillik dövründə Azərbaycan uşaq ədəbiyyatının bir neçə yaradıcı nəsli böyük ədəbiyyat meydanında öz sözünü deməkdədir" (Həbibbəyli, 2020)**.** Azərbaycan uşaq poeziyası və dramaturgiyası ilə yanaşı nəsri də durmadan inkişaf edır. Müasir mərhələdə Azərbaycan uşaq ədəbiyyatı nümayəndələrindən Gülzar İbrahimova, Reyhan Yusifqızı, Sevinc Nuruqızı müxtəlif janrlara müraciət etməklə yanaşı, hekayə janrında da bir-birindən maraqlı əsərlər yaratmışlar.

Digər janrlardan fərqli olaraq, hekayədə əhvalat və hadisə yığcam, konkret nəql olunur, surətlərin sayı az olur. Bu janr uşağı yormur, ona görə də bu əsərləri sevə-sevə dinləyir və oxuyurlar. Uşaq yazarları da hekayənin məhz bu xüsusiyyətini nəzərə alaraq, xüsusən kiçik yaşlı uşaqların xəyal aləminə uyğun, onları düşündürən mövzulara toxunmuşlar.

G. İbrahimovanın "Yaxşılıq", "Svetofor", "Əsl dost", "Yaxşı yoldaş", "Yeni il möcüzəsi", "Küsülülər", "Aramızda qalsın", "Dilli Güllü", "İcazə", "Dostlarım məndən qaçır", "Sehrli qar adamı" kimi hekayələri, Reyhan Yusifqızının "Xoşbəxt arı", "Mavi don", "Mən və nənəm", "İki qardaş", "Musanın əhvalatı", "Şəhrizad nağıl axtarır", "Dəcəl ilbizlər", "Ən gözəl", "Leyla və Günəş", "İgid şahin" və s. hekayələri, Sevinc Nuruqızının nisbətən böyük yaşlı uşaqlar üçün yazdığı "Şah İsmayıl Xətai", "Ağabəyim ağa", "Babək" hekayələri, kiçik yaşlı uşaqlar üçün qələmə aldığı "Al-qırmızı zanbaqlar", "Balaca və vicdanlı avtobus", "Bir nimçə çəmən", "Ağca və Cubbulu" və s. hekayələri təlimi-tərbiyəvi əhəmiyyətə malik olub, uşaqların zehni qabiliyyətlərinin inkişafına, leksikonlarının zənginləşməsinə, dünyagörüşlərinin artmasına şərait yaradır, həmçinin onlara müəyyən dərəcədə elmi biliklər aşılayır.

Bu hekayələrin əsas qəhrəmanları kiçik yaşlı uşaqlardır. Hər üç yazıçı yaratdığı surətlər vasitəsilə oxucularına dostluqda sədaqətli olmağı, dürüstlüyü, əməksevərliyi, vətənpərvərlik duyğularını təlqin edir.

Bu əsərlərdə uşaqların həyat tərzini təsvir edən hadisələr öz bədii əksini tapmış, müxtəlif yaş qruplarnı əhatə edən maraqlı mövzulara müraciət olunmuş, müasir oxucunu düşündürən problemlərə toxunulmuşdur.

Uşaqların sevimli yazıçısı, ədəbiyyat aləmində "Gülzar nənə" təxəllüsü ilə tanınan İbahimova ixtisasca iqtisadçı olmasına baxmayaraq, xalq yaradıcılığına, söz sənətinə olan məhəbbəti onu öz sehrinə salmış, ədəbiyyat aləminə gətirmişdir. Onun bu istedadını, bədii ədəbiyyata olan sevgisini görən BDU-nun professoru Qara Namazov yazıçıya öz xeyir-duasını vermiş, uşaqlar üçün gözəl əsərlər yazmağa davam etməsi üçün Gülzar xanıma yüksək dəyər verərək bu müqəddəs işdə ona mənəvi dəstək göstərmişdir. Q. Namazovun rəhbərliyi ilə təşkil edilmiş komissiya araşdırmalarından sonra Gülzar İbrahimova müasir uşaq yazıçısı kimi Bakı Dövlət Universitetinin "Azərbaycan Uşaq Ədəbiyyatı" dərsliyinə salınmışdır. Qara Namazov dərslikdə Gülzar xanımın yaradıcılığını belə qiymətləndirir: "O, müxtəlif bədii üsullardan istifadə edərək süjet qurur, əhvalata bəzək vurur, xalq nağıllarının dilinə uyğunlaşdırır, onun bədii formalarından ustalıqla istifadə edir" (Namazov, 2007, s. 435).

Müəllifin "Dostlarım məndən qaçar" adlı kitabı Qara Namazovun məsləhətçiliyi ilə çap olunmuşdur. Kitaba yazıçının dünya ədəbiyyatından iqtibas yolu ilə yazdığı "Yaxşılıq", "Svetofor", "Əsl dost", "Yaxşı yoldaş", "Yeni il möcüzəsi", "Küsülülər", "Aramızda qalsın", "Dilli Güllü", "İcazə", "Dostlarım məndən qaçır", "Sehrli qar adamı" kimi hekayələri daxil edilmişdir.

"Yaxşılıq" hekayəsinin qəhrəmanı Tərlan adlı oğlandır. Hekayədə yaxşılıq etməkdən və onun mahiyyətindən bəhs olunur. Səhərin açılmasına baxmayaraq, oğlunun hələ də yerindən qalxmadığını görən ana onun otağına gəlir və soruşur ki, bəlkə, nə düşündüyünü mənə də deyəsən? Bu vaxt Tərlan kiməsə yaxşılıq etmək haqqında düşündüyünü bildirir. Ana deyir ki: "əgər sən vaxtında yuxudan durub yatağını səliqəyə salsan, məni çox sevindirərsən. Bacını yelləncəyə aparsan, o, çox şad olar. Totuya su versən, bu sənin dilsiz canlıya yaxşılığın olar. Bax elə yaxşılıq da bundan ibarətdir" (İbrahimova, 2002, s. 7).

Hekayənin məzmunundan da göründüyü kimi, əsər tərbiyəvi əhəmiyyətə malikdir. Müəllif uşaqları xeyirxah, qayğıkeş, mərhəmətli olmağa səsləyir.

Müasir Azərbaycan uşaq ədəbiyyatının digər tanınmış nümayəndələrindən biri olan Reyhan Yusifqızı kiçik yaşlı oxucuların təxəyyülünə uyğun, sadə və anlaşıqlı bir dildə, müxtəlif janr və mövzularda əsərlər yazmış, bu əsərlərlə uşaqların qəlbinə yol tapmağa nail olmuşdur. R. Yusifqızı əsərlərində uşaqların tərbiyəsinə müsbət təsir göstərən, onların bədii zövqünü formalaşdıran, mütaliəyə həvəsini artıran tərbiyəvi əhəmiyyətə malik, gənc nəslin mənəvi cəhətdən zənginləşməsinə xidmət göstərən mövzulara toxunmuşdur. Bu əsərlər dilinin sadəliyi, axıcılığı, oxunaqlığı baxımından diqqəti cəlb edir. Müəllif kiçik oxucuların marağını nəzərə almış, əsərlərinin anlaşıqlı, yaddaqalan olmasına müvəffəq olmuşdur.

"Yazıçının yaradıcılığına nəzər salanda kiçikhəcmli hekayələrin üstünlük təşkil etdiyini görürük. "Mən və nənəm", "İki qardaş", "Musanın əhvalatı", "Şəhrizad nağıl axtarır", "Dəcəl ilbizlər", "Ən gözəl", "Leyla və Günəş", "Boz bala dovşanın qulaqları niyə əsirdi", "İgid şahin" kimi yığcam hekayələrdə müxtəlif mövzu və motivlərə toxunan Reyhan Yusifqızı hər bir əsərdə yeni problem ifadə edir, uşaqların maraqlarına uyğun məzmunda, oxunaqlı bədii əsərlər yaradır. Mövzunun uğurlu seçimi, süjet xəttinin ardıcıl quruluşu, uşaqların ruhuna yaxınlığı həmin əsərlərin sevilə-sevilə oxunmasına səbəb olur və onların şəxsiyyətinin formalaşması, bir fərd kimi yetişməsində əhəmiyyətli rolunu təcəssüm etdirir" (Qəmbərova, 2024, s. 18).

Reyhan Yusifqızı "Xoşbəxt arı", "Mavi don", "Mən və nənəm", "İki qardaş", "Musanın əhvalatı", "Şəhrizad nağıl axtarır", "Dəcəl ilbizlər", "Ən gözəl", "Leyla və Günəş", "İgid şahin" və s. hekayələrində uşaqları düşündürən mənəvi-əxlaqi mövzulara toxunmuşdur.

R. Yusifqızının "Mavi don" hekayəsinin mövzusu real həyatdan götürülmüşdür. Hekayədə Birinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman atanın ailəsindən, onların qarşılaşdıqları çətinliklərdən söhbət açılır.

Ata şəhid olduqdan sonra ailənin qayğısı ananın zərif çiyinlərinə düşür. İndiyəcən heç yerdə çalışmayan ana xeyirxah insanlarınköməkliyi ilə işə düzəlir. Ailənin böyük övladı Səiddir, o, bacısı Leylanın arzuladığı mavi donu almaq üçün mağaza müdirindən ona iş verməsini xahiş edir. Onun məktəbli olduğunu görən müdir əvvəlcə razı olmur, lakin işləmək arzusunun səbəbini bildikdən sonra müdir mağazanın qarşısındakı maşını göstərib, deyir: "O maşını ehtiyac olduqca beş-altı dəfə yusan, paltarı götürüb apara bilərsən" (Yusifqızı, 2023, s. 23). Səid bacısının mağazada gördüyü mavi donu almaq üçün bir neçə dəfə maşın yumalı olur.

Burada Səidin bacısının arzusunu yerinə yetirmək üçün günlərlə əziyyətə qatlaşması, bacısını sevindirmək istəyi onun fədakarlığından, xeyirxah təbiətə malik bir uşaq olmasından xəbər verir.

Azərbaycan uşaq yazarı, şair, tərcüməçi, publisist Sevinc Nuruqızı uşaqlar üçün müxtəlif janrlarda və rəngarəng mövzularda əsərlər yazmış, oxucularına milli-mənəvi dəyərlər, estetik zövq aşılamağa çalışmışdır. S. Nuruqızının nisbətən böyük yaşlı uşaqlar üçün yazdığı "Şah İsmayıl Xətai", "Ağabəyim ağa", "Babək" hekayələri, kiçik yaşlı uşaqlar üçün qələmə aldığı "Al-qırmızı zanbaqlar", "Balaca və vicdanlı avtobus", "Bir nimçə çəmən", "Ağca və Cubbulu" və s. hekayələri təlimi-tərbiyəvi əhəmiyyətə malikdir.

Məzmununa, dil-üslub xüsusiyyətlərinə görə, müəllifin ən yaxşı əsərlərindən biri hesab olunan bu hekayə 6-cı sinif ədəbiyyat dərsliyinə daxil olunmuşdur. Hekayədə Ağabəyim ağanın qürbətdə keçirdiyi xiffət, nisgil dolu həyatından, onun Vətən həsrətindən bəhs olunur. Əsər məktəbyaşlı oxucularda Vətənə məhəbbət hissi oyadır. Əsərin ideyası "Qürbət cənnət olsa da, yenə Vətən yaxşıdır" atalar sözü ilə səsləşir.

Yazıçının vətənpərvərlik mövzusunda yazdığı "Cənnətdə görüşərik" hekayəsi Azərbaycanın milli qəhrəmanı Mübariz İbrahimova həsr olunmuşdur. Müəllif digər tarixi mövzuda yazdığı əsərlərində olduğu kimi bu əsərində də real faktlara əsaslanmış, Mübarizin qəhrəmanlığı haqqında olan mənbələrə müraciət etmişdir. Əərin sonluğu oxucuya güclü təsir bağışlayır: "Sonra haradansa xain bir güllə gəldi. Vəhşi bağırtıyla uğuldadı... Uladı... Mübarizin sinəsinə sancıldı. Düşdüyü yeri parçaladı, dağıtdı... Sanki bir dağ çökdü. Ucadan uca bir dağ. Bir qaya paramparça oldu. Şiş ucu göylərə meydan oxuyan bir qaya. Bir oğul yıxıldı – "YA VƏTƏN", – deyib çağırdığının sinəsinə. Yıxıldı… Üzündə təbəssüm, səmaya dirənmiş gözlərində sonsuz sevinc: Allahım! Qürurla ölmək nə böyük xoşbəxtlik imiş. Nə qədər uca zirvə imiş ŞƏHİDLİK ZİRVƏSİ!" (Nehmətova, 2020, s. 17)

Sevinc xanımın həm əxlaqi, həm də tarixi mövzularda yazdığı hekayələr maraqlı süjet xəttinə, ibrətamiz xüsusiyyətinə və dilinin sadəliyinə, oxunaqlığına görə diqqəti cəlb edir. Eyni zamanda bu əsərlər müasir uşaq nəsrinin inkişafında mühüm rol oynayır.

Məktəbyaşlı uşaqların bu kimi hekayələri mütaliə etməsi, sinifdənxaric oxusunun, müzakirəsinin təşkili onların təfəkkürünün, bədii zövqünün formalaşmasında mühüm rol oynayır. Hər üç yazarın uşaqlar üçün yazdığı hekayələr həcmcə yığcam, dili sadə və anlaşıqlıdır. Bu əsərlər uşaqların dünyagörüşünün artmasına, nitqlərinin zənginləşməsinə, elmi biliklərinin möhkəmlənməsinə, vətənpərvər ruhda böyüməsinə xidmət göstərir. Bu baxımdan, uşaqlar üçün yorulmadan bir-birindən gözəl əsərlər yaradan qələm sahiblərinə yeni-yeni yaradıcılıq uğurları, geniş oxucu auditoriyası arzulayırıq.

## Nəticə

Hekayə janrı həcmcə yığcam olduğuna görə, xüsusən kiçik yaşlı məktəblilərin oxusu üçün əlverişlidir və aşağı siniflərdə – ədəbiyyat fənninin tədrisində bu janra, təbii ki, dil-üslub baxımından və ideyaca yüksək keyfiyyətə malik hekayələrə üstünlük verilməsi tövsiyə olunandır. Bu janr yığcam olmaqla yanaşı, həm də tərbiyəvi əhəmiyyət daşıyır, bu baxımdan, bu əsərlərin yazılmasına bütün zamanlarda üstünlük verilmiş və bu gün də yazılmaqdadır.

Azərbaycan uşaq ədəbiyyatının müasir mərhələsində hekayə janrında yeni-yeni əsərlər meydana çıxmışdır. G. İbrahimova, R. Yusifqızı, S. Nuruqızı kimi yazarlar bu janrda bir-birindən maraqlı, rəngarəng mövzularda əsərlər yaradır, uşaq ədəbiyyatının inkişafına xidmət göstərirlər.

## Ədəbiyyat

1. *Fantastikadan reallığa*. (2024). https://edebiyyatqazeti.az/news/edebi-tenqid/11776-fantastikadan-realliga
2. Xəlil, Z., Əsgərli, F. (2007). *Uşaq ədəbiyyatı*. "ADPU" nəşriyyatı.
3. İbrahimova, G. (2002). *Dostlarım məndən qaçar*. "Oskar" NPM.
4. Nehmətova, K. A. (2020). *Yazi işinin təşkili metodikası.* Təhsil İnstitutu.
5. Namazov, Q. (2007). *Azərbaycan uşaq ədəbiyyatı*. "Bakı Dövlət Universiteti" nəşriyyatı.
6. Nuruqızı, S. (2010). *Ağabəyim ağa*. Aspoliqraf.
7. *Uşaq dünyasında ədəbiyyat və uşaq ədəbiyyatı dünyası*. (2020). https://edebiyyatqazeti.az/news/edebi-tenqid/5754-usaq-dunyasinda-edebiyyat-ve-usaq-edebiyyati-dunyasi
8. Yusifoğlu, R. (2006). *Uşaq ədəbiyyatı*. Şirvannəşr.
9. Yusifqızı, R. (2023). *Yağışın altında*. TEAS Press.
10. Yusifli, V. (2019, 12-14 yanvar). Uşaqların Gülzar nənəsi. "*Kaspi" qəzeti*.

Daxil oldu: 26.09.2024
Baxışa göndərildi: 09.10.2024
Təsdiq edildi: 16.11.2024
Çap olundu: 30.11.2024